**UOT:** 1(091)
**KBT:** 60.03
**MJ №** 141

# Ənvər Əhmədovun tədqiqatlarında Azərbaycan maarifçilik fəlsəfəsi: tənqidi təhlil

**Zaur Rəşidov***

**Abstrakt.** Məqalədə XX əsrin tanınmış Azərbaycan fəlsəfə tarixçisi Ənvər Mirzəquliyeviç Əhmədovun (1920-1984), Azərbaycan maarifçilik fəlsəfəsilə bağlı görüşləri təhlil olunur. Ə.Əhmədov bütövlükdə Azərbaycan maarifçilik fəlsəfəsini mərhələlər üzrə və sistemli şəkildə tədqiq edən ilk alimlərimizdən biri olmuşdur. O, əsaslı şəkildə araşdırdığı Azərbaycan maarifçilik dövrünün, demək olar ki, hər bir yazarının irsinə müxtəsər şəkildə olsa da, müraciət etmişdir. Ə.Əhmədov XIX əsrin əvvələrindən formalaşaraq, XX əsrin 20-ci illərinədək məşəqqətli inkişaf yolu keçmiş, Azərbaycan maarifçilik dövrünün ümumi fəlsəfi mənzərəsini yarada bilmişdir. Fəlsəfə tarixilə bağlı əsərlərində mümkün olduğu qədər elmi obyektivliyi gözləməyə çalışsa da, Sovet dönəmində ictimai və ya sosial elmlər sahəsində fəaliyyət göstərmiş əksər alimlərimizdə müşahidə olduğu kimi, onun da irsində dövrün ideoloji xətti sezilməkdədir. Bu məqam Ə.Əhmədov və eləcə də, onun kimi digər Sovet dönəmi fəlsəfə tarixçilərimizin nəhəng irslərinin, müasir elmi paradiqma çərçivəsində dərkini, tənqidi yanaşmasız mümkünsüz edir. Sovet dönəminin məcburi marksizm-leninizm xətti, fəlsəfə tarixinin tədqiq oluan hər bir dövrü və mütəfəkkirində ilk növbədə materializm və ateizm axtarışı, təəssüf ki, bu dönəmin tədqiqatlarındakı elmi obyektivliyə xələl gətirir. Ə.Əhmədov və onun kimi digər alimlərimizin irsindəki bu kimi amillərin elmi-fəlsəfi yönümdən tənqidi təhlil əsasında şərhisə, Sovet dövrü fəlsəfə tarixçilərimizin əsərlərinin müasir dövrdə də aktuallıq kəsb etməsinə imkan yaradır.

**Açar sözlər:** maarifçilik, tənqid, realizm, ənənəçilər, modernistlər, marksizm, materializm, ateizm

* Fəlsəfə üzrə fəlsəfə doktoru,
AMEA, Fəlsəfə və Sosiologiya İnstitutu; Bakı, Azərbaycan
E-mail: zaur20@mail.ru
https://orcid.org/0000-0002-4504-1856

**Məqaləyə istinad:** Rəşidov, Z. [2022] Ənvər Əhmədovun tədqiqatlarında Azərbaycan maarifçilik fəlsəfəsi: tənqidi təhlil. *“Metafizika” jurnalı, 5*(4), səh.54-76.

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 13.08.2022*
*Təkrar işlənməyə göndərilmişdir: 19.09.2022*
*Çapa qəbul edilmişdir: 14.10.2022*

## 1.Giriş

XX əsrdə Azərbaycanın görkəmli fəlsəfə tarixi tədqiqatçılarından biri də Ənvər Əhmədov olmuşdur. Onun həm, orta əsrlər İslam dünyasında özünün ən yüksək zirvəsinə çatmış ərəb-müsəlman fəlsəfi fikri, həm də XIX-XX əsrlər Azərbaycan maarifçilik fəlsəfəsi və onun bəzi görkəmli nümayəndələrinin görüşləri haqqında əsaslı araşdırmaları vardır. Digər tərəfdən, yaradıcı elmi fəaliyyətilə yanaşı, o, həm də, aktiv pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. 35 ildən artıq pedaqoji fəaliyyətinin 25 ilini o, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin fəlsəfə kafedrasına rəhbərlik etmişdir. Azərbaycanda istər fəlsəfə, istərsə də, digər elm sahələrində yüksək ixtisaslı kadrların hazırlanmasında da onun böyük rolu olmuşdur. Belə ki, Ə.Əhmədovun elmin ictimai şüurun əsas forması olmasına dair, mənəvi cəhətdən yetkin şəxsiyyətlərin formalaşması haqqında, eləcə də, gənc mühəndislərin dünyagörüşlərinin artırılması və onların bilik hazırlığına həsr olunmuş məqalə, metodoloji təlimat vasitələri və tədris vəsaitlərinin də müəllifidir. [“İctimai şüurun bir forması kimi elm” (1), “Mənəvi cəhətdən yetkin şəxsiyyətin formalaşmasına dair” (2), “Gələcək mühəndisin dünyagörüşü hazırlığı” (3)] Bununla belə, Ə.Əhmədovun əsas elmi fəaliyyəti Azərbaycan maarifçilik dövrünün hərtərəfli tədqiqi və araşdırılması ilə bağlı olmuşdur. O, XX əsrin çoxsaylı Azərbaycan fəlsəfə tarixçiləri arasında, məhz maarifçilik dövrü haqqındakı tutarlı araşdırmaları ilə tanınır. Ə.Əhmədovun “Azərbaycan maarifçilik fəlsəfəsi” (*Философия азербайджанского просвещения*) adlı tədqiqat işi, Sovet dönəmində Azərbaycanda maarifçilik haqqında yazılan ən sanballı, əhatəli və son dərəcə informativ əsərlərdən biridir. Müəllifin uzun illər maarifçilik fəlsəfəsi üzrə apardığı dərin tədqiqat və araşdırmalarının yekunu qismində də çox dəyərli bir elmi əsərdir. Adı gedən əsərdə Ə.Əhmədovun tədqiq etdiyi sahəyə uyğun əsas mənbələr və birbaşa qaynaqlara istinadları da xüsusi qeyd olunmalıdır. Eləcə də, Ə.Əhmədov maarifçilik fəlsəfəmizin memarlarından olan Abbasqulu ağa Bakıxanovun (1794-1846) da, elmi-fəlsəfi irsini hərtərəfli tədqiq etmiş mütəxəssislərdən biridir. Amma təəssüf ki, Sovet dövrünün ictimai və humanitar elmlər sahəsindən tələb etdiyi ideoloji normativlər, əksər məqamlarda Ə.Əhmədovun əhatəli tədqiqat əsərlərini obyektivlikdən kifayət qədər kənara qoymaqdadır. Bunla belə, onun tədqiqatlarından həmən dövrün çərçivəsinə uyğun bəzi yazılması məcburi-zəruri məqamlar və sırf subyektiv yanaşmaları kənar etdikdə, əsərləri Azərbaycan fəlsəfə tarixi baxımından çox məlumatlı və dəyərli yazılardır. XIX əsrin əvvəllərindən, XX əsrin əvvəllərinədək Azərbaycan maarifçilik fəlsəfəsi haqqında ümumi dolğun mənzərənin formalaşdırlmasında olduqca önəmli vasitələrdir.

## 2.XIX əsrin əvvəlində maarifçilik fəlsəfəsi fenomeni

Hər bir xalqın müəyyən tarixi dönəmlərdə oyanışı, köhnəlikləri dekonstruksiya etməsi, yeniliklərə hazırlanması və növbəti çağırışlara köklənməsi zəncirvari baş verərək təkrarlanan vacib bir prosesdir. Bu cəhətdən, Azərbaycan maarifçiliyi də, XIX əsrin əvvəlindən coğrafiyamızda cövlan etmiş çətin tarixi və mürəkkəb geosiyasi proseslərin fonunda təsadüfi yox, məqsədəuyğun və zərurətlərdən törəmiş bir fenomendir. Eləcə də, XIX əsrin əvvəlində meydana gələn maarifçiliyin bünövrəsini hazırlayan məqamlar qismində, uzun müddət davam edən orta əsr amillərinin də önəmi xüsusidir. Hər bir fəlsəfi cərəyan dövrün zəruri tələblərinin qanunauyğun ifadəsi olsa da, maraqlıdır ki, Azərbaycanın uzun müddət eyni xətt- İslam dini üzərindən davam edən orta əsr episteması, böyük ölçüdə mövhümata qərq olaraq yeniliklərə qarşı dursa da, maarifçilik dönəmindəki yeniliklərin də arxa planı rolunda çıxış etmişdir. Yəni ümumilikdə Azərbaycan maarifçilik fəlsəfəsi əslində, XII əsrdə özünün zirvəsinə çataraq, XIX əsrədək eyni xətt üzrə inkişaf edib həyatın bütün sahələrinə sirayət etmiş ümumi İslam sxolastikasının rasional dekonsrtuksiyasına əsaslanır. XIX əsr maarifçiliyi bu sxolastikadan, məhz mövhümat, xürafat və fanatizmi təmizləməyə çalışırdı. Bu dövrün bir çox maarifçiləri isə, təmizlənmiş İslamın əxlaqi dəyərlərini, yeni maarifçi təlimlər formalaşdırmaq üçün əsas konsepsiyaya çevirirdilər. Eynən Qərb maarifçiliyi də, xristian sxolastikası və onun XVIII əsrdə əsas mövhumatçı təlimləri olan providensializm [Providensializm (latınca "providentia" tale deməkdir) tarixi hadisələrin öz daxili qanunauyğunluqları ilə deyil, Tanrının və ya ilahi qüvvənin iradəsilə izah etməyə cəhd edən dini dünyagörüşü sistemidir.] və inneizm [İnneizm (fransızca "inné" anadan gəlmə deməkdir) sonradan qazanılmış təcrübi olan və ya rasional biliyin ziddi, yəni fitri, doğuluşdan, anadan gəlmə olan fikir və ya ideya deməkdir.] ilə mübarizədən doğmuşdur. Maarifçilik Qərbdə də, Şərqdə olduğu kimi fiksizmə [Latınca "fixus" dəyişməz, daimi deməkdir.] (qədimizm) qarşı transformizm [Latınca "transformatio" dəyişmə, dəyişiklik deməkdir.] (cədidizm) arqumenti qoyulmuşdur. XIX əsr Azərbaycan maarifçiliyi də ictimai, siyası, sosial, mədəni və digər sahələrdəki yeni reallıqlar kontekstində meydana gələn, yeni rasional düşüncənin maraqlarını əks etdirirdi. Ə.Əhmədova görə, "Azərbaycan maarifçilik fəlsəfəsi oyanışda olan milli özünüdərkin fəlsəfəsidir" (4, s.290). Bu intibah [İntibah və maarifçilik arasındakı əsas fərqi izah edən Əhmədov yazır ki, "maarifçilik, mədəni tarixi yüksəliş epoxası olan intibahdan, xüsusi ideoloji forma olması ilə fərqlənir" (4, s.7-8). "Maarifçilik fəlsəfəsi metafizika, naturfəlsəfə, romantizm cərəyanından

özünün gerçək, yer mənşəli, aydın ifadə edilmiş sosial istiqamətlərilə seçilir” (4, s.289).] özünü düşüncədə, yəni, fəlsəfi-epistemoloji sahədə biruzə verdiyi kimi, digər sahələrdə də açıq bir şəkildə göstərirdi. İnsana bəşər kontekstindən verilən dəyər, onun azadlığı məsələsi ön plana çıxırdı. “Maarifçilik etikası insanın əsas əxlaqi təyinatını, onun ümumilikdə cəmiyyətə faydalı və yararlı olmasında görürdü” (4, s.152).

Ə.Əhmədov yazır ki, “*Azərbaycanın Rusiyaya birləşdirilməsi və onun iqtisadi həyatındakı irəliləyişlər, Azərbaycan mədəniyyətinin sonrakı inkişaf yolu üçün səmərəli hadisə olmuşdur... Bu yolda ciddi əngəl qismində, ərəb işğallarından başlayaraq kütlələrin üzərində hakim olan İslam dini çıxış edirdi*” (5, s.34). [Rusiya imperiyasına birləşdirilmənin, Azərbaycana milli-mənəvi dəyərlərin bütün sahələrində üstünlüklər qazandırması məsələsi, Sovet dönəmi Azərbaycan fəlsəfə tədqiqatçılarının əksərində rast gəlinən mühakimələrdəndir. “XIX əsrin əvvəllərində Azərbaycanın Rusiyaya birləşdirilməsi, Azərbaycan xalqının mədəni inkişafına şərait yaratdı” (6, s.3). “Rusiyaya birləşmək sayəsində Azərbaycan soyğunçu daxili feodal çəkişmələri və xaricdən gələn viranedici basqınlardan xilas oldu” (7, s.5). “Azərbaycanın Rusiyaya birləşdirilməsi sülh, xarici düşmənlərdən qorunmaq və dözülməz daxili çəkişmələrdən xilas vəd edirdi. Azərbaycan öz tarixi taleyini həll edib, cəsarətlə Rusiyaya doğru addımladı” (8, s.10). “Rusiyaya birləşmə Azərbaycan xalqının demokratik yönümlü mədəni inkişafı üçün böyük imkanlar açdı. Azərbaycanın qabaqcıl nümayəndələri ictimai-fəlsəfi fikir ənənələri zəngin olan rus mədəniyyəti və onun vasitəsilə də dünya mədəniyyət xəzinələrinə qovuşmaq imkanları əldə etdilər” (9, s.21). “XIX əsrin birinci yarısı Azərbaycan xalqının tarixində ən vacib dövrlərdən biridir. Məhz bu dövrdə, Azərbaycan tarixində ən mühüm hadisələrdən biri baş verdi ki, bu da Azərbaycanın Rusiyanın tərkibinə daxil edilməsidir. Bu hadisə obyektiv olaraq Azərbaycan xalqının sosial, iqtisadi və mədəni həyatının bütün sahələrində proqresiv əhəmiyyətə malik idi” (10, s.147).] “*XIX əsrdə Azərbaycanda maarifçilik ideologiyasının meydana gəlməsinə böyük ölçüdə imkan yaradan məqam, Azərbaycanın Rusiyaya birləşdirilməsi olmuşdur. Bu tarixi hadisənin nəticəsində, Azərbaycan ictimai-fəlsəfi fikri intensiv formada rus və Avropa maarifçiliyini öz üzərində hiss etmiş oldu. Amma rus və Avropa maarifçiliyinin nəzərə çarpacaq təsirlərinə baxmayaraq, Azərbaycan maarifçiliyi özünəməxsus milli hadisə kimi törəyərək ortaya çıxdı. Bu maarifçiliklərdən mənimsənilən fikirlərsə, Azərbaycan gerçəkliyinin prizmasından keçib, bu diyarın öz çağırışları, eləcə də, Azərbaycan xalqının maddi və mənəvi tələbatları əsasında meydana gəldi*” (4, s.9-10). “*Rusiya imperiyasının tərkibində Azərbaycanın sosial və iqtisadi inkişafından doğan*

*yeni maddi və mənəvi tələbatlar, təhsilli azərbaycanlıların intellektual maraqlarının istiqamətlərini dəyişmiş oldu*" (4, s.39-40). "*Azərbaycanın Rusiyaya birləşməsi elmin dindən ayrılmasına zəmin hazırlayan, yeni dövrün təbii elmi biliklərinin də yayılmasına əlverişli şərait yaratdı*" (4, s.50). Azərbaycan maarifçilik fəlsəfəsinin meydana gəlməsi və formalaşmasında, ümumilikdə Qərb maarifçiliyinin rolu və eləcə də, həmən dönəmdə onun Azərbaycana ötürülməsini təmin edən Rusiya imperiyasında meydana gələn, genişmiqyaslı maarifçilik hərəkatının təsirləri danılmazdır. O dövrlərdə Azərbaycanın Qərb dünyası ilə elmi-mədəni bağlılığı, məhz Rusiya imperiyası vasitəsilə təmin olunurdu. Azərbaycan Qərb maarifçiliyini olduğu kimi yəni, sırf Qərb yönündən yox, üçüncü tərəf qismində və özünəxas ənənəvi koloritində qəbul etmiş oldu. Eləcə də, özü də formalaşmaq mərhələsində olan, bu bilvasitə maarifçiliyə qarşı, öz qədim milli-mənəvi dəyərlər sistemini qoydu. Bu da Azərbaycan mədəniyyətinin dərin və aşınmaz köklərə malik olmasına əyani sübutdur. Bir mədəniyyətin digər mədəniyyətdə assimilyasiya olmaması isə əsrlər boyu toplanan mədəni dəyərlərin çəkisindən asılıdır. Məhz bu məqam, əsrlər boyu formalaşan ənənəvi milli-mədəni dəyərlərin qorunub saxlanılması üçün də vacib şərtlərdən biridir. Bütövlükdə keşməkeşli və münaqişəli mərhələlərdən keçən Azərbaycan maarifçiliyinin mahiyyətindəki aşkar millilik də buradan qaynaqlanmaqdadır. XIX əsrin çətin tarixi şərtlərində, Azərbaycan maarifçiliyi, öz keçmişilə sıx şəkildə bağlı olan varislik əlaqələrini qorumaq şərtilə Qərb maarifçiliyini mənimsədi.

Amma, Sovet dönəmi Azərbaycan maarifçilik fəlsəfəsinə həsr olunmuş tədqiqatların demək olar ki, böyük qismində bu və bu qəbildən olan digər son dərəcə həssas mədəni-tarixi məqamlara etinasız münasibətin olduğunu da qeyd etməliyik. Məhz bu kimi məqamların gözdən qaçırılması və ya keçmişlə varislik yox, Sovet ideoloji xəttinə həddindən ziyadə bağlılıq, qaçılmaz olaraq təhrifləri də doğurmaqdadır. "*Azərbaycan və bütün Zaqafqaziyanın könüllü olaraq Rusiyaya birləşdirilməsi, XIX əsrin əlamətdar hadisəsidir*" (11, s.88). "*1828-ci ildə Azərbaycan xalqı öz taleyini həmişəlik olaraq böyük rus xalqının taleyilə bağladı*" (12, s.6). Statik və passiv ifadələr olan "könüllülük" və "həmişəlik" fəlsəfi anlamda milli dəyərlərin inkarı və onlardan imtinadır. "Könüllük" və "həmişəlik" kontekstində, Azərbaycan maarifçilik fəlsəfəsinin milliliyi və özünəməsxusluğundan danışmaq anlamsızdır. Azərbaycanın Rusiya imperiyası tərəfindən işğalı ilə başlayan maarifçilik isə mübarizənin yeni formasından doğan zərurət və mədəni özünəməxsusluğun yeni şərtlər daxilində tərənnümünün bariz ifadəsidir. Maarifçilik ümumilikdə dinamik bir prosesdir və onun yönəlişi öz xalqına, öz

mədəniyyətinə, öz keçmişinədir. Onun mahiyyətində əsasən xalqın mədəni özünəməxsusluqları ehtiva olunduğundan, maarifçilik ilk öncə fərqliliyi əsas alan fəlsəfədir. Marifçilik identiklik axtarışında olan fəlsəfədir. Azərbaycan maarifçilik fəlsəfəsinin əsas qayəsi olan millilik amili, XIX əsrin əvvəllərindən XX əsrin 20-ci illərinədək, öz inkişaf istiqamətini dəyişməmişdir. "Bakıxanov, Axundzadə və Zərdabi qarşısındakı borclarını düzgün dərk edən yeni nəsilin ziyalıları, azərbaycanlı kimliyinə münasibətdə baxışlarını daha da təkmilləşdirdilər. XIX əsrin son onilliklərində doğulan ziyalıların isə fərqli "nəsillərin" nümayəndələri yox, formalaşdıqları illərdə baş verən hadisələrin doğurduğu modernistlərin "dalğaları" kimi təsvir etmək olar" (13, s.8).

Əhmədov yazır ki, "XIX əsrin əvvələrində Azərbaycandakı müstəqil xanlıqlar qarşısında iki seçim imkanı var idi. Ya İran və Türkiyə tərəfindən zəbt olunmaq, ya da Rusiyaya birləşmək. Azərbaycanın proqressiv sosial, iqtisadi və mədəni inkişafının təmini baxımdan Rusiyaya birləşmək daha doğru yol idi. Bu şərtlər daxilində uzaqgörən azərbaycanlılar Rusiyaya meyllənməyə başladılar" (4, s.24-25). "Azərbaycan maarifçilik fəlsəfəsinin nəzəri əsaslarını rus və Avropa materialist fəlsəfəsi və təbii elmi biliklərdəki müasir fikirlər təşkil edirdi" (4, s.89). Fikrimizcə, qeyd olunan bu tarixi və fəlsəfi hadisələri də, dəyərlərindən artıq dəyər qataraq qiymətləndirmək doğru deyil. Rusiya imperiyasını həmən dönəmin digər imperiyaları ilə qiyaslayaraq, onun XIX əsrdə mədəni cəhətdən daha üstün olmasını iddia etmək, onun fəaliyyətini qəsbkarlıq yox, birləşdiricilik kimi təqdim etmək, Sovet dönəminin tələblərinə uyğun olaraq Azərbaycanın Rusiya imperiyasına birləşdirilməsinin tarixi rolunu maarifçilik kontekstində şişirdərək, çox vaxt Rusiya imperiyasını Rusiya, bəzənsə, mənaaltı Sovet Rusiyası kimi təqdim etmək, Azərbaycan maarifçilik fəlsəfəsini ümumilikdə materializmin idealizm üzərində qələbəsi kimi göstərmək, bu genişmiqyaslı və hərtərəfli mədəni-tarixi hadisəni bilavasitə dar materialist ənənlərlə bağlamaq qətiyyən həqiqəti əks etdirmir.

**3.Maarifçilik: mədəni varislik və ya keçmişin dekonstruksiyası**

Ə.Əhmədov yazır ki, "maarifçilik dönəmindəki milli həmrəylik və iqtisadi canlanma şəraitində, Azərbaycan alimləri ilk növbədə, doğma diyarlarının tarixi keçmişinin öyrənilməsinə mənəvi tələbat hiss edirdilər" (4, s.40). Bu mənada, "milli tarixin yazılmasının əhəmiyyətini ilk anlayanlardan biri də, Abbasqulu ağa Bakıxanov (1794-1846) olmuşdur" (4, s.41). "Bakıxanovun kosmoqrafik xarakterli bilgiləri də, o dövrdə Azərbaycanda, kainata münasibətdə orta əsrlərin görüşlərindən fərqli olaraq, elmi baxışların meydana gəlməsindən xəbər verir" (14, s.80). "Rusiyada şərqşünaslıq elminin

meydana gəlib inkişafına şərait yaradan ilk alim-şərqşünaslardan biri də məhz Bakıxanov olmuşdur" (5, s.90). Rusiya imperiyası və o dönəmki Azərbaycan mədəni əlaqələrində, Bakıxanovun məqsədəmüvafiq maarifçilik fəaliyyətinə digər Bakıxanov irsinin tədiqatçıları da diqqət yetirirlər. "Rusiya və Azərbaycan arasındakı mədəni əlaqələrin qurulmasında, Bakıxanovun son dərəcə əhəmiyyətli tarixi rolu olmuşdur" (15, s.8). "Bakıxanovun dünyagörüşünün formalaşması və inkişafına, şair-tarixçinin dövrün ictimai hərəkatına yaxınlığı, rus və polyak ədəbiyyatının ən görkəmli nümayəndələrilə tanışlığı təsir göstərmişdir" (16, s.4). "Bakıxanov rus yazıçıları və eləcə də, Zaqafqaziyanın digər qardaş xalqlarının mütərəqqi insanları arasında, Azərbaycana və Azərbaycan poeziyasına maraq oyatmışdır" (17, s.104).

Ə.Əhmədov yazır ki, "sosial mənsubiyyətinə görə zədəgan olduğundan, Bakıxanov nə siyasi-ideoloji, nə də psixoloji olaraq elm və din arasındakı kompromisdən uzağa getməyə hazır deyildi... Onun elm və din arasında tərəddüd etməsi, yəni, "həqiqətlərin ikiliyi" nəzəriyyəsi də buradan qaynaqlanmaqdadır" (4, s.12). "Bakıxanov Azərbaycanın orta əsrərinin son və eyni zamanda da, yeni dövrünün ilk mütəfəkkiri idi... Onun əsərləri forma və mahiyyət etibarı ilə köhnə və yeninin qarışığından ibarətdir" (4, s.60). ["Bakıxanov iki mədəniyyətin- Yaxın Şərq ölkələrinin çoxəsrlik inkişafı ilə bağlı olan qədim, feodal və yeni, mütərəqqi, demokratik mədəniyyətlərin qovuşmasında yaşayıb fəaliyyət göstərirdi. O, böyük Azərbaycan maarifçisi Mirzə Fətəli Axundovun fikir sələfi idi" (8, s.33-34). "Bakıxanovsuz Axundovu anlamaq mümkün deyil" (8, s.39).] "Bakıxanov alim qismində öz dövrünün təbiət elmləri sahəsində qazanılan nəaliyyətləri təbliğ etsə də, filosof qismində köhnə təlimlərə sadiq idi" (4, s.60-61). "Bakıxanov öz kosmoqrafik görüşlərində bir çox Qərb alimlərinə istinad etsə də, yerin öz oxu və günəş ətrafında fırlanması, aləmin sonsuzluğu ideyalarını uğursuz bir şəkildə Quran ayələrinin mahiyyətlərilə də uzlaşdırmağa çalışırdı" (4, s.53). Düşünürük ki, Bakıxanovun yaradıcılığına xas bütün bu özünəməxsus məqamlar, Azərbaycan maarifçilik hərəkatının əvvəldə qeyd etdiyimiz kimi, Azərbaycan mədəniyyətinin tarixi keçmişilə sıx varislik bağları vasitəsilə bağlı olmasından irəli gəlir. Bu mənada bir qədər paradoksal səslənsə də, ümumilikdə Azərbaycan mədəniyyətinə münasibətdə "köhnəlik" termini yenilik termininin antonimindən, daha çox hansısa mənada, onun sinonimidir. Onların arasındakı qəti sərhəd son dərəcə şərtidir. Bu ikisi daima qarşılıqlı vəhdətdədir. Biri-köhnəlik o birini-yeniliyi hər dəfə tamamlamaqdadır. Fəlsəfi mənada yenilik köhnəliyin yenilənərək yeni təzahürüdür. Keçmişlə gələcək arasında sıx varislik əlaqələri qurma ənənəsi

Qərb maarfçiliyinə də xasdır. "*Şarl Lui Monteskyö (1689-1755) əmin idi ki, keçmişi bilmədən bu günü dərk etmək və xalqların gələcəyi haqqında əsaslı mühakimə yürütmək mümkünsüzdür*" (18, s.167). Ş.L.Monteskyö "Qanunların ruhu" adlı məşhur əsərində yazır ki, "*iqlim, din, qanunlar, idarəetmə prinsipləri, keçmiş örnəklər, qaydalar, adətlər kimi insanları idarə edən çoxsaylı xüsusların nəticəsində xalqın ümumi ruhu formalaşır*" (19, s.310). Yəni, inkişaf yolu keçərək formalaşan istənilən xalq öz tarixi keçmişindən qırıla və ya keçmişin kontekstindən kənar formalaşa bilməz. "*Jan Jak Russo (1712-1778) da keçmişi ideallaşdırırdı, amma sözün hərfi mənasında keçmişə də çağırmırdı... Russonun idealı gələcəkdə, amma, onun tərəfindən illüziya kimi başa düşülən gələcəkdə idi*" (20, s.265). Eləcə də ümumilikdə, Azərbaycan maarifçiliyi Azərbaycanın keçmiş mədəni irsi və İslami dəyərlərlə də sıx şəkildə bağlıdır. Hətta bəzi maarifçilər tərəfindən İslamın tənqidi belə gerçəkdə İslamın yox, köhnəlik və yeniliyi bir-birinə zidd edərək onlar arasındakı vəhdəti məhv edən mövhümata qarşıdır. Bu mənada, Azərbaycan maarifçilik hərəkatı, ilk öncə keçmişdən qalan və indiyə ötürülən boşluqları doldurmaq məqsədi güdürdü. Bu maarifçilik keçmişlərdə nəzərdən qaçırılmış məqamları bərpa edərək köhnəlikləri yeniliklərlə uzlaşdırmağa yönəlmişdir ki, Bakıxanovun yaradıcılığı da bu baxımdan nümunəvidir. Azərbaycan maarifçiliyi mədəni irsin dekonstruksiyası, ümumilikdə mədəniyyətin yenilənmsi və ona əngəl olan məqamların təmizlənməsidir. Ə.Əhmədovun Bakıxanovun irsilə bağlı tədqiqatlarında müşahidə olunan bəlli ideoloji örtüklü məqamlar, digər maarifçilərə münasibətdə də özünü göstərir. "*Seyid Əzim Şirvaninin (1835-1888) tənqidi satirik poeziyası köhnə təlim ruhunda yetişərək ondan qidalandığından, xalq kütlələrini feodal-təhkimçilik quruluşu ilə mübarizəyə təşviq etmirdi*" (4, s.80). [A.A.Bakıxanov kimi, S.Ə.Şirvani də orta əsr epistеması və ya İslam dünyasının klassik irsindən tam olaraq ayrıla bilməmişdir. "O, təbiətin insanların əql, ehtiras, qəlb və hisslərinə təsir göstərdiyinə inanırdı" (21, s.53). Orta əsrlərdə İbn Xəldun (1332-1406) tərəfindən inkişaf etdirilən coğrafi determinizm ideyası, XIX əsrədək öz aktuallığını itirməmişdir.] Yəqin ona görə ki, satiranın əsas məqsədi mübarizədən daha çox, məhz gülüş-yumor üzərindən qınaq formalaşdırmaqdır.

XIX əsrin digər böyük maarifçisi Mirzə Fətəli Axundzadənin (1812-1878) irsini qiymətləndirən Ə.Əhmədov yazır ki, "maarifçiliyin əsas komponetlərindən biri olan fərdi azadlıq problemi, Azərbaycan maarifçilik fikrində ilk dəfə Axundov tərəfindən işıqlandırıldı... Axundov fərdi azadlığın zəruriliyini, sosial inkişafın əsas şərtlərindən biri kimi göstərirdi" (4, s.15). "Tənqid" terminin sosial-syasi şərhinə də, ilk dəfə olaraq Axundovun

əsərlərində rast gəlinir. Marifçiliklə birgə meydana gələn sosial-tənqidi fikir, öz növbəsində fəlsəfi əsasını maarifçilik təşkil edən yeni ədəbi metod, realizmin formalaşmasınında da həlledici rol oynamışdır" (4, s.18). [Feyzulla Qasımzadə (1898-1976) isə, hesab edir ki, "Bakıxanov haqlı olaraq XIX əsrin birinci yarısında Azərbaycan bədii ədəbiyyatında yeni, realist istiqamətin yaradıcısı hesab olunur (15, s.4). O, həmçinin hesab edir ki, XIX əsrin ikinci yarısında Azərbaycanın yetkin maarifçiliyi ilk növbədə M.F.Axundov və Həsən bəy Zərdabinin (1837-1907) adları ilə bağlı olsa da, ilkin maarifçilk A.A.Bakıxanov, İsmayıl bəy Qutqaşınlı (1806-1861) və Mirzə Şəfi Vazehin (1794-1852) adları ilə bağlı olmuşdur (15, s.7). Ağababa Rzayev (1923-2003) "İsmayıl bəy Qutqaşınlını Azərbaycan maarifçilərinin ilk pleyadasına aid edir" (22, s.427).] "Axundzadəyə görə, tənqid, dini hidayət və əxlaqi nəsihətlərdən fərqli olaraq, ictimai şüurun təkmilləşdirilməsində daha mühüm vasitəsidir" (23, s.44). [Axundzadə irsinə həsr olunmuş Qərb ədəbiyyatlarında, daha çox sosial-ictimai məsələləri tənqid etdiyindən irəli gələrək, onu sosioloq kimi də təqdim edirlər (25, s.3).] Qərb maarifçiliyinin iki əsas komponenti olan, fərdi azadlıq və elmi tənqid, Axundzadə yaradıcılığında da əsas elementlərdəndir. Ə.Əhmədova görə, "Axundov ölkənin "avropalaşmasına", onun iqtisadi və mədəni cəhətdən dəyişərək yenilənməsində tam doğru bir yol kimi baxırdı" (4, s.13-14). "Məhz Avropanın rasionalist skeptisizmi, ruslaşmış ziyalı Axundzadənin fəaliyyətinə yeni zəmin hazırladı və onun hiddətli tənqidlərinə bəraət qazandırdı" (24, s.59).

Ə.Əhmədov Bakıxanov irsinin nümunəsində olduğu kimi, Axundzadənin də yaradıcılığına münasibətdə, bəzi məqamları dövrün məcburi tələbləri kontekstində dəyərləndirərək, Sovet ideologiyasına uyğunlaşdırır və eləcə də, onu öz dövrünün epistemasını aşa bilməsi səbəbilə qeyri-obyektiv tənqid etməyə çalışırdı. "İslam ilə mübarizə, Axundovu mübariz materializmə gətirib çıxardı. O, dinin sonuncu ideya dayağı qismində gördüyü istənilən formalı metafizikadan qəti şəkildə imtina zərurətini qarşısına əsas məqsəd olaraq qoymuşdur" (4, s.12). "Axundov mübariz ateist olsa da..., onun ateizmi maarifçilik ateizmi idi. O, dinin sosial kökləri və onların dəf edilməsi yollarını, materializm kontekstindən izah edərək aşa bilmədi" (4, s.129). "Axundov ədəbiyyat və incəsənəti xalqın maariflənməsi, tərbiyəsi, həmçinin proqresiv və demokratik ideyaların yayılmasında vacib təsiredici vasitələr kimi nəzərdən keçirirdi. Amma Azərbaycan maarifçisi Marksaqədərki estetikanın çərçivələrini tərk edə bilməmişdi" (4, s.165). [Bu kimi absurd mühakimələrə Sovet dönəminin digər tədqiqatçılarında da rast gəlmək olur. "Böyük filosof-materialist olan

Axundov, bütün Makrsaqədərki materialistlər kimi materializmi sosial hadisə səviyyəsinə qaldıra bilmədi" (26, s.71). Ümumiyyətlə, Axundzadəni bəlağətli bir formada, marksizm üzərindən oxumaq Sovet dönəmində yayğın bir hal idi. "Təbiət haqqında materialist təlimin işığında Axundov dini etiqad və maddi aləm haqqında idealist təlimlərin qəsirini yıxırdı... Axundov fəlsəfənin ən vacib problemlərinin materialist izahını verirdi" (27, s.18). "Ateist Axundov materialist bir filosof kimi keçmiş filosofların baxışlarını nəzərdən keçirib, idealizmə qarşı kəskin mübarizə yolu ilə materializm cəbhəsində dururdu" (28, s.39-40).] Düşünürük ki, Axundzadənin fikirlərində "mübariz materializm" elementləri axtarmaq, onu "inqilabçı" [Axundovun inqilabçı ruha sahib olması ilə razılaşmaq olar. Hətta ölümündən sonra Axundov irsinə olan marağın səngiməsini də, bu məqamla əlaqələndirən tədqiqatçılar vardır. "Əlbəttə ki, qeyd olunan dönəmdə Rusiyada (*Rusiya imperiyası-Z.R.*) M.F.Axundov irsinin yayılmamasının əsas səbəbi inqilabi ruhda yazılan "Aldanmış kəvakib" və "Kəmalüddövlə məktubları" əsərləri idi. Bu əsərlər kəskin şəkildə o zamankı dövlət quruluşuna qarşı duraraq, onu dəyişikliklər və yenilənməyə səsləyirdi" (29, s.78). Sovet dönəmində Axundzadənin irsinə artan marağı da, məhz bu mənada anlamaq lazımdır. Amma nəzərə almaq lazımdır ki, Axundzadənin inqilabı elmi, mədəni bir sözlə milli maarifçi inqilabıdır. Mahiyyəti 1917-ci ildən sonra sakrallaşan, milliliyi məhv edən inqilab anlayışı deyil.] elan etmək, Axundzadəni öz dövründən qopararaq təxminən yüz il qabağa çəkməkdir. Bu terminlər oktyabr inqilabından sonra bəlli ideologiyanın şüarına çevrilib, Ə.Əhmədovun qeyd etdiyi kontekstdə istifadə olunmağa başlamışdır. Metafizik əsaslara malik İslam mədəniyyətində yetişən Axundzadənin mübariz materialistə çevrilməsi, birmənalı olaraq onu öz dövrünün kontekstindən ayıraraq müasirləşdirməkdir. Digər tərəfdən, Axundzadə və ümumiyyətlə XIX əsrin əksər maarifçilərin qarşı çıxdıqları mahiyyətcə İslamın özü yox, bilavasitə İslama yamaq olan mövhumat idi. Bu məntiqlə, çox vaxt açıq tənqidlər dinə-İslama yönəlsə də, əslində bu tənqidlərin hədəfində mövhümat, xürafat, cəhalət və fanatizmin olmasını, qeyd olunan əsrin maarifçilərinin irsinə müraciət etdikdə də, açıq şəkildə görmək mümkündür. Bu mənada, o dövrün mövhümat məngənəsinə salınmış İslamı, bütün bu terminləri ümumiləşdirdiyindən istər-istəməz tənqidlərin də əsas hədəfinə çevrilirdi. Üstün əxlaqi dəyərlərə sahib İslam dini, ona yamaq olan süni və saxta elemetlərin qurbanı olurdu. Ümumiyyətlə, ictimai-sosial məsələləri qabardan maarifçilik fəlsəfəsində Tanrı, varlıq və bu kimi metafizik suallar müzakirə sahəsindən uzaqlaşdırılaraq fəlsəfi sitemlərdən də xaric edilir. Bu isə, Tanrının birmənalı inkarı demək də deyil. Bu Tanrının yenidən aid olduğu

məkana, yəni sırf din məkanına qaytarılmasıdır. XVIII əsrdəki mövhümatçı xristian dininə qarşı son dərəcə dözümsüz olan fransız materialistlərindən- Ş.L.Monteskyö, Fransua-Mari Volter (1694-1778), J.J.Russo belə Tanrıdan imtina etmirdilər. Bu mənada onlar ateist yox, deist idilər (30, s.33), (31, s.83-84).

Digər tərəfdən, fəlsəfə tarixində fikir üstünlüyü və ya etalon təlim yoxdur. Sovet dönəmində qələmə alınmış tədqiqatlarda tez-tez rast gəlinən "Marksadək olan və Marksdan sonra mövcud" yanaşmalarısa, böyük filosof Karl Marksı (1818-1883) dəyərindən artıq dəyərləndirmək və digər mütəfəkkirləri, Ə.Əhmədovun nümunəsindəsə, Şərqin Axundov kimi nəhəng şəxsiyyətini ideologiya xatirinə- Marksın ucalığının təsdiqi naminə kiçildib fəda etməkdir. Təəssüf ki, bu kimi fikirlər günümüzdə də, Axundzadənin Axundzadəliyini, onun Azərbaycan üçün fədakarlığını düzgün anlamaqda ən böyük əngəllərdən biridir. Sovet dönəmində yayğın olub və günümüzədək daşınan köhnə ideoloji mühakimələr, Azərbaycanın nəhəng fikir sahibi Axundzadənin fəaliyyətinə kölgədir. Ə.Əhmədov Bakıxanov və Axundzadədən başqa, XIX əsrin digər maarifçilərini də bənzər "qüsurlar" ucbatından tənqid edirdi. "Cəmiyyətdə dərin köklər salmış müsəlman mövhümatının sosial mahiyyəti və gerçək təyinatının üzə çıxarılması, həmçinin inanclı müsəlmanların gündəlik həyatı və vərdişlərinə əsaslı şəkildə daxil olan ... İslam adətləri, məcburi ayinlərini açıq şəkildə tənqid etsələr də, nə Şirvani nə də, Zərdabi Axundovun mübariz ruhlu ateizmi səviyyəsinə qalxa bilmədilər." (4, s.132).

**4.Ənənəçilər və modernistlər**

Ə.Əhmədov bütövlükdə XIX-XX əsr Azərbaycan maarifçiyini ideya baxımından və düşüncə istiqamətinə görə, ilk öncə iki əsas qol olan ənənəçilər və modernistlərə ayırırdı (4, s.178). Daha sonra isə müsəlman islahatçı maarifçiliyi (4, s.183), liberal-demokrat maarifçilik (4, s.201), radikal-demokrat maarifçilik (4, s.216), inqilabi-demokrat maarifçilik (4, s.249) və marksizm təlimi (4, s.267) olmaqla beş qrupa bölürdü.

Ə.Əhmədovun Sovet dövrünün ideoloji köklərindən qaynaqlanan tənqid vektoru, "despotik" Şərq mədəniyyəti və İslam irsinə bağlı olduqlarından irəli gələrək, ənənəçiləri də kəsib keçirdi. "Ənənəçilərdən Səid Ünsizadə (1845-1905), onun kiçik qardaşı Cəlal Ünsizadə və başqaları burjuaziyalaşmış feodal-klerikal dairələrin ideoloqları qismində, milli yenidənqurma və dirçəlişi avropalaşmaqda yox, ənənəvi müsəlman mədəniyyəti əsasında təşkil etməyin vacibliyini irəli sürərək teokratiya və mütləqiyyətin tərəfdarları kimi çıxış edirdilər" (4, s.178). "XIX əsrin sonu və XX əsrin əvvələrində "Kaspi", "Həyat", "Təzə Həyat" qəzetləri və "Füyuzat"

jurnalı ətrafında qruplaşmış Azərbaycan panislamistlərindən Əhməd bəy Ağayev (1869-1939), Əli bəy Hüseynzadə (1864-1940), Məhəmməd Əmin Rəsulzadə (1884-1955), Əlimərdan bəy Topçubaşov (1862-1934), Haşım bəy Vəzirov (1867-1916), Qara bəy Qarabəyov (1874-1953) açıq şəkildə müsəlman xalqlarının “özlərinə xas olan” tarixi inkişafa malik olmasını müdafiə edirdilər... Bu cəhətdən ənənəçilər hərəkatı Azərbaycanın burjua yönümlü sosial-iqtisadi inkişafına, artaraq genişlənən rus və Avropa mədəni təsirinə qarşı aristokratik reaksiyanın təzahürü idi” (4, s.178).

“Modernistlər isə əksinə sosial inkişafın, rus-Avropa mədəniyyəti əsasında və ona istiqamətlənmiş milli dirçəlişin tərəfdarları kimi çıxış edirdilər” (4, s.178-179). “Azərbaycanın proqresiv modernist ziyalılarının bir qismi, Səməd bəy Mehmandarov (1856-1931), Məhəmməd ağa Şahtaxtinski (1846-1931), Hüseyn Minasazov (1881-1932), Eynəli bəy Sultanov (1866-1935) ümumi demokrat maarifçiliyin çərçivəsində qalmaqda davam edərək, əsasən “Şərqi Rus” “Yeni təhsil” (Новое образование), “Qafqaz”, “Zaqafqaziya” və s. kimi qəzetlərin səhifələrində radikal proqramlı tələblərlə çıxış edirdilər. Digər qrup, Firudin bəy Köçərli (1863-1920), Rəşid bəy Əfəndiyev (1863-1942), Teymur bəy Bayraməlibəyov (1862-1937), Mahmud bəy Mahmudbəyov (1863-1923), Sultan Məcid Qənizadə (1866-1938) siyasi cəhətdən sağçı qismində, liberal-demokratik ideyaları təbliğ etməkdə idilər. “İrşad”, “Tərəqqi” qəzetləri, “Məktəb”, “Rəhbər” və s. jurnallarda əsasən gerilik, nadanlıq, fanatizmi tənqid atəşinə tutaraq, elm və maarifi müdafiə edirdilər. Üçüncü qrup Nəriman Nərimanov (1870-1925), Cəlil Məmmədquluzadə (1869-1932), Mirzə Ələkbər Sabir (1862-1911), Ömər Faiq Nemanzadə (1872-1937), Üzeyir Hacıbəyov (1885-1948), Səməd ağa Ağamalıoğlu (1867-1930) solçu istiqamətə meyillənərək inqilabi-demokratik ideologiya səviyyəsinə qalxıb, irəliyə doğru böyük addım atmış oldular. “Molla Nəsrəddin”, “Arı”, “Tuti”, “Bəhlul” və s. jurnalların ətrafında cəmləşən bu proqresiv Azərbaycan ziyalıları, liberallardan ayrılıb qətiyyətlə burjua-demokrat inqilabi ideyalarını müdafiə edərək, bu dönəmlərdə müstəqil və nüfuzlu ideya cərəyanına çevrilmiş inqilabi sosial-demokratlara yaxınlaşdılar” (4, s.179-180).

“İnkişaf etməkdə olan çirkin burjuaziyanın reallıqlarından hasil olan məyusluq öz əksini, sonrakı dövr maarifçiliyini əvəz etməyə çalışan romantizm cərəyanında da tapmış oldu. Onun təmsilçiləri, əsasən şair və yazıçılar olan Məhəmməd Hadi (1879-1920), Hüseyn Cavid (1882-1941), Abbas Səhhət (1874-1918), Abdulla Şaiq (1881-1959) və digərlərinin sosial idealları, maarifçilərin də uğrunda mübarizə apardıqları sosial ideallarla eyniyyət təşkil edirdi” (4, s.180).

## 5.Müsəlman islahatçı maarifçiliyi

Bütün parametrlərinə görə, Sovet ideologiyasının nomenklaturasına uyğun gəlməyən müsəlman islahatçı maarifçiliyi və onun nümayəndələrini amansız tənqid edən Ə.Əhmədov yazır ki, "maarifçilik hərəkatına qoşulan Ə.Hüseynzadə, Ə.Ağayev, Ə.Topçubaşov, nəticədə maarifçilik hərəkatını panislamist məcraya yönəltməyə çalışırdılar. Onlar müsəlman din xadimlərini mənəvi cəhətdən və düşüncə yönündən yenidən tərbiyə etməyi tələb edir, İslamı müasirləşdirib yenidən canlandıraraq cəmiyyəti İslam əsasında yenidən şəkilləndirməyi tələb edirdilər" (4, s.177). "Sovet hakimiyyəti qurulanadək pantürkist və panislamistlər, Azərbaycan mədəniyyəti və fəlsəfə tarixinin öyrənilməsinə etinasız münasibət bəsləyir, ümumiyyətlə, bu sualın qoyuluşunun doğruluğuna etiraz edirdilər" (5, s.3). [Ə.Hüseynzadə, Ə.Ağaoğlu və M.Ə.Rəsulzadənin "obyektiv" tənqidi- onların, anti-humanist olmaları, pantürkist, panislamist mövqeydə durmaları, keçmişə dönüşü təbliğ etmələri, alogizmə-qeyri-məntiqi düşüncəyə meyillənmələri, burjua publisitləri olmaları, Azərbaycan burjuaziyasının tərəfini saxlamaları, idealist metodu təbliğ etmələri, subyektiv idealizm mövqeyində durmaları, dekadans-çöküş tərəfdarları olmaları, Vladimir İliç Lenin (1870-1924) tənqid etdiyi Ernst Maxın (1838-1916) empirokritisizm (təcrübə yönündən tənqid) təliminə rəğbət bəsləmələri və s.- Sovet dönəmi Azərbaycan maarifçilik fəlsəfəsilə bağlı tədqiqatlarda tez-tez müşahidə olunan hallardır (11, s.146-147, 173, 197-198, 204, 242), (32, s.47-48, 92-93, 97-98, 113-114, 186-187), (10, s.395-396).] "Panislamizmin təbliği, Azərbaycanın zəhmətkeş kütlələri arasında özünə dayaq tapa bilmədi. Belə ki, xalqın güzəranının yaxşılaşması, proletar kütlələr arasında beynəlmiləl əlaqələrin qurulması, sosial-demokrat təşkilatların meydana gəlməsi, dinin sosial bazasını daraltdı, onun kütlələrə təsirini zəiflətdi. Digər tərəfdən, Azərbaycan inqilabi demokratları, vaxtında özlərinin azadlıq hərəkatı ideologiyasını dinə qarşı qoymağa müvəffəq oldular. Buna görə də, panislamist platformaya tərəfdar "İttifaq", "Difai", "İttihad" kimi burjua-mülkədar partiyaları bir-birinin ardınca parçalanmağa başladılar" (4, s.186). "Respublika quruluşu ilə dinin nəzəri əsaslarının uyumlu olduğunu iddia edən daha radikal panislamistlər, İslamı sosializmin dini qismində təqdim etməyə çalışaraq elan edirdilər ki, müsəlman şəriəti sosializmin idealları ilə tam uyumludur. Görünür elə bu səbədən də, Azərbaycan panislamistlərinin bir qismi, 1904-cü ildə Rusiya Sosial Demokrat Fəhlə Partiyasının Bakı Komitetinin nəzdində yaradılmış "Himmət" sosial-demokrat qrupunun tərkibinə daxil oldular" (4, s.186). M.Şahtaxtinskiyə istinad edən Ə.Əhmədov yazır ki, "müsəlmanların əqllərindən istənilən milli azadlıq düşüncələrini silməyə çalışan panislamistlər, "Azərbaycan milləti" və "Azərbaycan dili" terminlərini ortaya atdılar. "Zaqafqaziya müsəlmanlarını" o dönəmin rəsmi ədəbiyyatında olduğu kimi "tatarlar" yox, "azərbaycanlılar" adlandırılması təşəbbüsü ilə çıxış etdilər" (4, s.246). Əvvəldə qeyd etdiyimiz kimi, istənilən maarifçilik

fəlsəfəsində identiklik önəmli məsələdir. Fransız, alman, rus maarifçiliyi kimi konkret xüsusi terminlər də, bilavasitə bununla bağlıdır. Eynən Azərbaycan maarifçiliyinin də, Azərbaycan xalqının inşasında əsas sistem yaradıcı element qismində, milli identiklik axtarışında olması, təsadüfi hadisə deyil. “Ən parlaq nümayəndəsi Mirzə Fətəli Axundzadə olan birinci nəsil Azərbaycan ziyalıları açıq-aşkar İran mədəniyyətinin təsiri altında idilər. 1870-ci illərdə formalaşan ikinci nəsilsə, getdikcə daha çox türk mədəniyyətinə xas ənənələrə müraciət etməyə başladı” (33, s.16).

**6.Liberal-demokrat maarifçilik**

“Öz dərsliklərində M.Mahmudbəyov, A.Səhhət, R.Əfəndiyev, Fərhad Ağazadə (1880-1931), A.Şaiq və digər liberal-demokrat maarifçilər, eləcə də, demokratik romantizmin nümayəndələri Arximed, Ptolemey, N.Kopernik Q.Qaliley, İ.Nyuton, İ.Kant, P.S.Laplas, Ç.Darvin kimi insanların adları ilə bağlı olan, təbii elmi biliklər sahəsindəki fikirlər və kəşfləri müfəssəl şəkildə izah edirdilər. Aləmin yaradılması və kainatda həyatın meydana gəlməsi suallarında xürafata əsaslanan təsəvvürlərisə, tənqid atəşinə tuturdular” (4, s.205). Ə.Əhmədova görə “liberal-demokrat maarifçiliyin ən görkəmli nümayəndəsi Firidun bəy Köçərli idi” (4, s.206). Ə.Əhmədov “Köçərlinin qadınların kölə halına salınması və eləcə də, onun İslam ilə heç bir əlaqəsi olmayan aşura ayinini tənqid etməsini də xüsusi vurğulayır” (4, s.208). “F.Köçərli, T.Bayraməlibəyov kimi liberal maarifçilər əmin idilər ki, gərəksiz qatqılardan təmizlənmiş, yenidən sərf nəzər edilmiş və müasirləşdirilmiş İslam, müsəlman xalqlarının ictimai həyatında müsbət rol oynamaq iqtidarındadır” (4, s.196). “R.Əfəndiyev də cəmiyyətdə dərin kök salmış xürafat və mövhümatı, din xadimlərinin əxlaqdan uzaq davranış və rəftarlarını əsaslı şəkildə tənqid edirdi” (4, s.212). “M.Mahmudbəyov müsəlman ruhanilərinin mənəvi cəhətdən cürüyərək geriləməsi və eləcə də, müridizmi də tənqid etmişdir” (4, s.213). “M.Mahmudbəyov ilə yanaşı, o dönəmlərdə Şirvanda fəaliyyət göstərən müridizm hərəkatının şeyxlərini, H.Zərdabi, R.Əfəndiyev, M.Hadi də tənqid və ifşa edirdilər” (4, s.216). M.Mahmudbəyovun müridizmin dini-əxlaqi moizəçiliyi və bu təlimin şeyxlərinin qeyri-əxlaqi davranışlarının tənqidi, digər Sovet dönəmi fəlsəfə tarixçilərinin tədqiqatlarında da öz əksini tapır (10, s.364).

**7.Radikal-demokrat maarifçilik**

“Radikal-demokrat maarifçilərdən təkcə S.Mehmandarov, dinin tənqidində ardıcıl ateist mövqe tutmuşdur” (4, s.219). “S.Mehmandarova görə, elmin inkişafı və sosial proqres sayəsində artıq Qurana obyektiv qiymət verməyin, onu hərtərəfli və qərzsiz tənqid etməyin zamanı gəlmişdir... O, müsəlman məzhəblərinin meydana gəlməsi və onların mistik mahiyyətlərini...

eləcə də, aşuranı kəskin şəkildə tənqid edirdi" (4, s.222). "İslamın müsəlman xalqlarının mənəvi aləmi və düşüncələrinə hakim kəsilməsi, radikal maarifçiliyin digər nümayəndəsi, M.Şahtaxtinski tərəfindən də sərt şəkildə tənqid olunurdu" (4, s.224). "M.Şahtaxtinski və S.Mehmandarov müsəlman ölkələrinin geriliyi və durğunluğunun səbəblərini, əsas etibarı ilə İslam dinində görürdülər" (4, s.195).

"M.Şahtaxtinski Azərbaycanın Rusiyaya birləşdirilməsinin tarixi əhəmiyyətini də xüsusi olaraq qiymətləndirirdi" (4, s.227). "Separatçı panislamist hərəkatın əleyhinə çıxış edən M.Şahtaxtinski qeyd edirdi ki, Azərbaycan və rus xalqlarını bir-birinə əsirlərin dosluğu bağlayır. "Ənənəvi olaraq formalaşmış ümumixalq həmrəylik hissini" əsas tutan bu xalqları bir-birindən ayıracaq heç bir qüvvə yoxdur" (4, s.228). "M.Şahtaxtinski panislamist ideyalarına görə, Ə.Ağayev, Q.Qarabəyov, İsmayıl bəy Qasprinskini (1851-1914) tənqid edirdi" (4, s.228). "Radikal-demokrat maarifçilər, keçmiş İslamın panislamistcəsinə ideallaşdırılmasının yerli, lokal yox, beynəlxalq bir hadisə olmasını aydın şəkildə anlayırdılar. Onlar təkcə Ə.Ağayev, Ə.Hüseynzadə, Ə.Topçubaşov, H.Vəzirov, M.Ə.Rəsulzadə kimi milli-Azərbaycan panislamistlərini yox, eləcə də onların Yaxın Şərqdəki müəllimlərini də tənqid edirdilər. M.Şahtaxtinski "Tac axtaran", H.Minasazov isə, "İslamda reforma" adlı məqalələrində, Cəmaləddin Əfqani (1838-1897) və Mirzə Qulam Əhməd Qadiyaninin (1835-1908) fikirlərini tənqidi şəkildə işıqlandırırdılar" (4, s.199).

"M.Şahtaxtinski və S.Mehmandarovdan fərqli olaraq, H.Minasazov bütövlükdə təzahürünü mədəniyyət və sivilizasiyada tapan ictimai inkişafı, cəmiyyətin spontan-təsadüfi öz inkişafı kimi nəzərdən keçirirdi" (4, s.235). "H.Minasazova görə, cəmiyyətin ictimai inkişafında əsas göstərici məqamlardan biri də, qadın azadlığı məsələsidir" (4, s.236). "E.Sultanov da, qadın azadlığının tərəfdarı idi. O, qeyd edirdi ki, qadına alqı-satqı obyekti kimi baxan xalq mədəni və azad hesab oluna bilməz" (4, s.239-240). "Şərq despotizminin tənqidi, eləcə də, müsəlman ölkələrindəki ictimai və intelektual durğunluq, S.Ağamalıoğlunun məqalələrində də öz əksini tapır" (4, s.240). "1905-1907-ci illərin inqilabları radikal-demokrat maarifçilər tərəfindən sevinclə qarşılandı... H.Minasazov çarizmə baş qaldıran xalqın sonda qalib gələcəyinə şübhə etmirdi. O, əmin idi ki, məhz bundan sonra ölkə demokratik inkişaf yoluna qədəm qoyacaqdır" (4, s.241).

**8.İnqilabi-demokrat maarifçilik**

"Bir dünyagörüşü sistemi olaraq inqilabi-demokrat maarifçilik Azərbaycanda, yalnız birinci rus inqilabı dönəmində formalaşdı. Onun əsas nümayəndələri, N.Nərimanov, C.Məmmədquluzadə, M.Ə.Sabir,

Ö.F.Nemanzadə, Ü.Hacıbəyov, S.Ağamalıoğlu və digərləri idi. Bu əqidə sisteminin formalaşmasına sosial-demokratik ideologiya həlledici təsir göstərmişdir” (4, s.249-250). “İnqilabi-demokrat maarifçilik Azərbaycanda marksist fəlsəfədən öncəki, ən yüksək və ən yetkin inkişaf səviyyəsini təmsil edən istiqamətdir” (4, s.254). “İnqilabi-demokrat maarifçiliyin Aərbaycanda ən tanınmış nümayəndəsi, istedadlı jurnalist və yazıçı Cəlil Məmmədquluzadə idi. Birinci rus inqilabının ideyalarından ilham almış Cəlil Məmmədquluzadə 1906-cı ildə təkcə Zaqafqaziyada deyil, eləcə də, bütün Yaxın Şərq və Orta Asiyada böyük şöhrət qazanmış satirik jurnal “Molla Nəsrəddin”in təsisçisidir” (4, s.254-255). “Din və üləmanın tənqidində C.Məmmədquluzadə mübariz materializm və ateizm səviyyəsinə qalxmış oldu” (4, s.257). “Çarizmin siyasi mütləqiyyəti, burjua-mülkədar qaydaları, din və ruhanilərə qarşı bənzər barışmaz münasibəti Ö.F.Nemanzadədə də görmək olar” (4, s.258). “Ö.F.Nemanzadə də mübariz materializm və ateizm mövqeyində dururdu” (4, s.259). İnqilabi-demokratların dinə qarşı fəaliyyətlərini yüksək dəyərləndirən Ə.Əhmədov, bu cəhətdən, onları liberal-demokratlardan üstün tuturdu. “Liberal-demokrat düşərgənin nümayəndələrindən fərqli olaraq inqilabi-demokrat maarifçiliyin təmsilçiləri, C.Məmmədquluzadə, Ö.F.Nemanzadə və digərləri, İslam ehkamlarını materialist və ateist mövqedən tənqid edirdilər” (4, s.195).

Ə.Əhmədov, M.Ə.Sabir və Ü.Hacıbəyovu da inqilabi-demokrat maarifçiliyin nümayəndələrinə aid edirdi (4, s.259-260). “XX əsrin ilk illərində inqilabi-demokrat maarifçiliyin nəhəng nümayəndələrindən biri, daha sonralar marksist maarifçiliyinin təbliğatçısı zirvəsinə qalxan N.Nərimanov olmuşdur” (4, s.262). “XX əsrin əvvələrində inqilabi-demokrat maarifçiliyin nümayəndəsi olub, sonradan N.Nərimanov kimi marksizm-leninizm mövqeyi tutanlardan biri də, S.Ağamalıoğludur” (4, s.265).

**9.Marksizm təlimi**

“Ümumilikdə materialist, ateist və inqilabi-demokrat ənənələrlə həmrəy olan maarifçilik fəlsəfəsinin meydana gələrək inkişafı, marksist təlimin Azərbaycanda kök salması üçün də münbit ideya zəmini hazırlamış oldu” (4, s.267). “Azərbaycanın inqilabi-demokratik ziyalıları arasında ilk dəfə olaraq, qarşıya qoyulan həyati suallara qəti cavab vermək iqtidarında olan marksizmə, doğru elmi nəzəriyyə kimi baxanlardan biri də, görkəmli yazıcı, publisit, ictimai xadim N.Nərimanov olmuşdur” (4, s.273). “N.Nərimanov XX əsrin əvvələrində yaranmış böhran vəziyyətindən istifadə edərək müsəlman xalqlarının xöşbəxtliyini komunizmin dünyəvi ideallarında yox, Quran və şəriətdə axtarmağa təşviq edən panislamist və pantürkistlərə qarşı mübarizədə böyük əmək və xeyli güc sərf etmişdir. O, xüsusi sərtlik və

qeyri-şərtsiz olaraq müsavatçıların "millət", "din", "dövlət" müdafiəçisi kimi qopardıqları fəryadları ifşa edirdi" (4, s.278). "Azərbaycanın inqilabi ziyalıları arasında marksist təlimin gerçək pioneri, istedadlı publisit görkəmli partiya xadimi Sultanməcid Əfəndiyev (1887-1938) olmuşdur" (4, s.279). "Əqidəli marksist-leninist olan S.Əfəndiyevin bütün yaradıcılığında, xalqların dostluğu ideyası və proletariat beynəlmiləlçiliyi özünü qabarıq şəkildə göstərir" (4, s.282).

**10.Nəticə**

Ə.Əhmədovun Azərbaycan maarifçilik fəlsəfəsi və bu fəlsəfənin formalaşma mərhələsinin ən əsas nümayəndələrindən biri olan A.A.Bakıxanov haqqında yazdığı əsərlər, şübhəsiz ki, Sovet dönəmi fəlsəfə tariximiz adına olduqca önəmli tədqiqatlardandır. Ə.Əhmədov ictimai elmlərin tam nəzarətdə olduğu bir zamanda, Azərbaycan maarifçiliyinin meydana gəlməsinə zəmin hazırlayan mürəkkəb tarixi şərait, çətin şərtlər çərçivəsində maarifçilik dövrünün inkişaf mərhələləri və milli maarifçiliyimizin görkəmli nümayəndələrinin dünyagörüşlərindəki başlıca fikirləri də, sistemli şəkildə tədqiq edərək, bəlli dövrə uyğunlaşdırılmış şəkildə qələmə almışdır. Ə.Əhmədov maarifçilik dönəmini fəlsəfə tarixi baxımından təhlil etməklə yanaşı, XIX əsrdə bölgəmizdə baş verən əsas hadisələri tarixilik bucağından da analiz etmişdir. XIX əsrin tarixi proseslərinin fonunda Azərbaycan maarifçilik fəlsəfəsinin genezisini tədqiq edərək, bu fəlsəfənin özünəməxsusluğunu da göstərməyə çalışmışdır. Ə.Əhmədovun məhdud imkanlar çərçivəsində titanik fəaliyyəti nəticəsində ərsəyə gələn əsərləri, XIX əsrin əvvələrindən XX əsrin 20-ci illərinədək Azərbaycan fəlsəfə tarixi və maarifçilik dövrünün fəlsəfəsi haqqında kifayət qədər müfəssəl bir mənzərə formalaşdırır. Ümumilikdə, maarifçilik fəlsəfəsi və bu çoxşaxəli hərəkatın ictimai, siyasi, sosial, dini və digər tərəfləri haqqında yetərincə ətraflı təəssürat yaradır. Ə.Əhmədovun araşdırmaları Sovet dönəmində fəlsəfə, eləcə də, fəlsəfənin ən əsas bölməsi olan fəlsəfə tarixini, məhdud ideoloji qəlibləri̇lə çərçivələsə də, ümumilikdə öz dövrü üçün Azərbaycan fəlsəfəsi adına bu araşdırmaların dəyəri çox yüksəkdir. Zəngin mədəni irsimizin o dövrün Sovet məkanında tanıdılmasında böyük əhəmiyyət kəsb etməkdədir. Sovet dönəmində, Qafqaz və Orta Asiya ölkələrinin, xüsusən də, bu ərazilərdə İslam mədəniyyətini təmsil edən xalqların keçmiş irsilə bağlı əsərlərin ideologiya məngənəsində daha çox sıxıldığını nəzərə aldıqda, Ə.Əhmədovun əsərlərinin öz dövrü üçün qiyməti misilsizdir.

## ƏDƏBİYYAT

1.Ахмедов, Э.М. (1955). Наука как форма общественного сознания. *Труды института истории и философии. Том VII.* Баку: Издательство Академии Наук Азербайджанской ССР, с. 135-157.

2.Ахмедов, Э.М., Букреева, В.Г., & Мамедов, И.А. (1978). *О формировании духовно зрелой личности.* Баку: Гянджлик. 94 с.

3.Ахмедов, Э.М. (1983). *Мировоззренческая подготовка будущего инженера.* Баку: АзИНХ, 71 с.

4.Ахмедов, Э.М. (1983). *Философия Азербайджанского просвещения*. Баку: Азернешр, 291 с.

5.Ахмедов, Э.М. (1989). *А.К.Бакиханов: Эпоха, жизнь, деятельность*. Баку: Элм, 228 с.

6.Мирзоева, Ш. (1962). *Эстетические взгляды М.Ф.Ахундова*. Баку: Издательство Академии Наук Азербайджанской ССР, 64 с.

7.Рзаев, А.К. (1980). *Ахундов.* Москва: Юридическая литература, 72 с.

8.Рафили, М. (1959). *Ахундов*. Москва: Издательство ЦК ВЛКСМ «Молодая гвардия», 191 с.

9.Мамедов, Ш.Ф. (1978). *Мирза-Фатали Ахундов.* Москва: Издательство «Мысль», 166 с.

10.Геюшев, З. (1968). *Этическая мысль в Азербайджане (исторические очерки)*. Баку: Гянджлик, 564 с.

11.Халилов, Г.В. (1984). *Идеи гуманизма в общественной мысли Азербайджана (вторая половина XIX и начало XX века)*. Баку: Элм, 274 с.

12.Mirəhmədov, Ə. (1953). *Mirzə Fətəli Axundov*. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 96 s.

13.Altstadt, Audrey L. (2016). *The Politics of Culture in Soviet Azerbaijan, 1920-40*. New York: Routledge, 234 p.

14.Ахмедов, Э.М. (1967). *Изложение космографических воззрений А. К. Бакиханова.* Баку: Издательство Академии Наук Азербайджанской ССР, 81 с.

15.Касим-заде, Ф. (1958). *Аббаскулу Ага Бакиханов (Гудси). Жизнь и творчество.* Баку: Азербайджанское издательство детской и юношеской литературы, 173 с.

16.Ениколопов, И.К. (1975). *Современники о Бакиханове.* Баку: Элм, 64 с.

17.Агаян, Ц.П. (1948). *А.Бакиханов*. Баку: Издательство АН Азербайджанской ССР, 177 с.

18.Кузнецов, В.Н., Мееровский, Б.В., & Грязнов, А.Ф. (1986). Западноевропейская философия XVIII века. Москва: Высшая школа, 400 с.

19.Montesquieu, Charles de Secondat. (2015). *The spirit of the laws.* Cambridge: Cambridge University Press, 757 p.

20.Нарский, И.С. (1973). *Западноевропейская философия XVIII века.* Москва: Высшая школа, 302 с.

21.Геюшев, З. (1960). Некоторые вопросы этических воззрений Азербайджанских просветителей второй половины XIX века. *Труды сектора философии. Том II (VII).* Баку: Издательство Академии Наук Азербайджанской ССР, с. 49-72.
22.Рзаев, А.К. (2000). *История политических и правовых учений в Азербайджане. От истоков до XX века*. Баку: Элм, 528 с.
23.Rahimieh, N. (2017). Four iterations of Persian literary nationalism. *Constructing nationalism in Iran: from the Qajars to the Islamic Republic* (edited by Meir Litvak.). Abingdon: Routledge, pp. 40-55.
24.Sanjabi, Maryam B. (1995). Rereading the enlightenment: Akhundzada and his Voltaire. *Iranian Studies, 28:1-2*, pp. 39-60.
25.Parsinejad, I. (1990). *Mirza Fath Ali Akhundzadeh and Literary Criticism.* Piedmont: Jahan Book Co, 76 p.
26.Садыхов, М. (1987). *Мирза Фатали Ахундов.* Баку: Язычы, 78 с.
27.Джафаров Дж. (1962). *Мирза-Фатали Ахундов.* Баку: Азербайджанское государственное издательство, 24 с.
28.Araslı, H. (1938). *Mirzə Fətəli Axundov*. Bakı: Azərbaycan Sovet Yazıçıları İttifaqı Nəşriyyatı, 52 s.
29.Тагизаде, С. (1991). *Мирза Фатали Ахундов и Восток.* Баку: Азернешр, 304 с.
30.Баскин, М.П. (1975). *Монтескье.* Москва: Издательство «Мысль», 165 с.
31.Кузнецов, В.Н. (1978). *Франсуа Мари Вольтер.* Москва: Издательство «Мысль», 223 с.
32.Мирзоева, Ш. (1981). *Из истории эстетической мысли Азербайджана (XIX-начало XX века)*. Баку: Элм, 204 с.
33.Волхонский, М., Муханов, В. (2007). *По следам Азербайджанской Демократической Республики*. Москва: Издательство «Европа», 256с.

## Философия Азербайджанского просвещения в исследованиях Энвера Ахмедова: критический анализ

**Заур Рашидов***

**Абстракт.** В статье анализируются взгляды на философию азербайджанского просвещения известного азербайджанского историка

* Доктор Философии,
НАНА, Институт Философии и Социологии; Баку, Азербайджан
E-mail: zaur20@mail.ru
https://orcid.org/0000-0002-4504-1856

**Цитировать статью:** Рашидов, З. [2022]. Философия Азербайджанского просвещения в исследованиях Энвера Ахмедова: критический анализ. *Журнал «Metafizika»*, *5*(4), с.54-76.

***История статьи:***
*Статья поступила в редакцию: 13.08.2022*
*Отправлена на доработку: 19.09.2022*
*Принята для печати: 14.10.2022*

философии XX века Энвера Мирзекулиевича Ахмедова (1920-1984). Э.Ахмедов был одним из первых ученых исследовавших азербайджанскую философию просвещения поэтапно и системно. Он изучил наследие почти каждого автора, тщательно исследовавшего период азербайджанского просвещения. Э.Ахмедову удалось создать общую философскую картину эпохи просвещения Азербайджана, формировавшегося с начала XIX века и прошедшего сложный путь развития до 20-х годов XX века. Несмотря на то, что в своих работах по истории философии он старался максимально сохранить научную объективность в его наследии чувствуется идеологическая линия того времени, что наблюдается у большинства наших ученых проводивших исследования в области социальных наук в советский период. Этот момент не предоставляется возможным без критического подхода, осмысления в рамках современной научной парадигмы богатого наследия Э.Ахмедова и других историков философии советского времени. Обязательная марксистско-ленинская линия советской эпохи, поиски материализма и атеизма в каждом периоде и мыслителе истории философии, к сожалению, подрывает научную объективность исследований данного этапа. Интерпретация подобных факторов в наследии Э.Ахмедова и других наших ученых, на основе научно-философского критического анализа, позволяет трудам наших историков философии советского периода, оставаться актуальными и в наше время.

**Ключевые слова**: просветительство, критика, реализм, традиционалисты, модернисты, марксизм, материализм, атеизм

## The philosophy of Azerbaijan Enlightenment in the studies of Enver Akhmedov: a critical analysis

**Zaur Rashidov***

**Abstract.** The article analyzes the views on the philosophy of Azerbaijan Enlightenment, the famous Azerbaijani historian of philosophy of

* Doctor of Philosophy (Ph.D),
Institute of Philosophy and Sociology, ANAS; Baku Azerbaijan
E-mail: zaur20@mail.ru
https://orcid.org/0000-0002-4504-1856

**To cite this article:** Rashidov, Z. [2022]. The philosophy of Azerbaijan Enlightenment in the studies of Enver Akhmedov: a critical analysis. *“Metafizika” journal, 5*(4), pp.54-76.

***Article history:***
*Received: 13.08.2022*
*Accepted: 14.10.2022*

the XX century, Enver Mirzekulievich Akhmedov (1920-1984). E.Akhmedov was one of the first scientists who studied the Azerbaijan philosophy of enlightenment in stages and systematically. He briefly referred to the legacy of almost every author, thoroughly studied by him during the period of Azerbaijan Enlightenment. E.Akhmedov managed to create a general philosophical picture of the era of enlightenment in Azerbaijan, which was formed from the beginning of the XIX century and went through a difficult path of development until the 20s of the XX century. Despite the fact that in his works on the history of philosophy he tried to preserve scientific objectivity as much as possible, there is an ideological line of that time in his legacy, which is observed among most of our scientists who conducted research in the field of social sciences during the Soviet period. This moment makes it impossible, without a critical approach, to comprehend within the framework of the modern scientific paradigm, the rich legacy of E.Akhmedov and other historians of philosophy of the Soviet era. The obligatory Marxist-Leninist line of the Soviet era, the search for materialism and atheism in every period and thinker of the history of philosophy, unfortunately, undermines the scientific objectivity of research at this stage. The interpretation of such factors in the legacy of E.Akhmedov and our other scientists, based on scientific and philosophical critical analysis, allows the works of our historians of philosophy of the Soviet period to remain relevant in our time.

**Keywords:** enlightenment, criticism, realism, traditionalists, modernists, Marxism, materialism, atheism

## REFERENCES

1.Akhmedov, E.M. (1955). *Science as a form of social consciousness. Proceedings of the Institute of History and Philosophy. Volume VII.* Baku: Publishing House of the Academy of Sciences of the Azerbaijan SSR, pp. 135-157. (in Russian)
2.Akhmedov, E.M., Bukreeva, V.G., & Mamedov, I.A. (1978). *On the formation of a spiritually mature personality.* Baku: Ganjlik. 94 p. (in Russian)
3.Akhmedov, E.M. (1983). *Worldview training of the future engineer.* Baku: AzINKh, 71 p. (in Russian)
4.Akhmedov, E.M. (1983). *Philosophy of Azerbaijani education.* Baku: Azerneshr, 291 p. (in Russian)
5.Akhmedov, E.M. (1989). *A.K. Bakikhanov: Epoch, life, activity.* Baku: Elm, 228 p. (in Russian)
6.Mirzoeva, Sh. (1962). *Aesthetic views of M.F.Akhundov.* Baku: Publishing House of the Academy of Sciences of the Azerbaijan SSR, 64 p. (in Russian)
7.Rzaev, A.K. (1980). *Akhundov.* Moscow: Legal Literature, 72 p. (in Russian)

8.Rafili, M. (1959). *Akhundov.* Moscow: Publishing house of the Central Committee of the All-Union Leninist Young Communist League "Young Guard", 191 p. (in Russian)
9.Mamedov, Sh.F. (1978). *Mirza-Fatali Akhundov.* Moscow: Publishing House "Thought", 166 p. (in Russian)
10.Geyushev, Z. (1968). *Ethical thought in Azerbaijan (historical essays).* Baku: Ganjlik, 564 p. (in Russian)
11.Khalilov, G.V. (1984). *Ideas of humanism in the social thought of Azerbaijan (the second half of the 19th and the beginning of the 20th century).* Baku: Elm, 274 p. (in Russian)
12.Mirahmadov, A. (1953). *Mirza Fatali Akhundov.* Baku: Azerbaijan State Publishing House, 96 p. (in Azerbaijani)
13.Altstadt, Audrey L. (2016). *The Politics of Culture in Soviet Azerbaijan, 1920-40.* New York: Routledge, 234 p. (in English)
14.Akhmedov, E.M. (1967). *Exposition of cosmographic views A. K. Bakihanov.* Baku: Publishing House of the Academy of Sciences of the Azerbaijan SSR, 81p. (in Russian)
15.Kasim-zadeh, F. (1958). *Abbaskulu Agha Bakikhanov (Gudsi). Life and creativity.* Baku: Azerbaijan publishing house for children's and youth literature, 173 p. (in Russian)
16.Enikolopov, I.K. (1975). *Sovremenniki about Bakikhanov.* Baku: Elm, 64 p. (in Russian)
17.Aghayan, T.P. (1948). *A. Bakikhanov.* Baku: Publishing House of Azerbaijan SSR, 177 p. (in Russian)
18.Kuznetsov, V.N., Meerovsky, B.V., & Gryaznov, A.F. (1986). *Western European philosophy of the XVIII century.* Moscow: Higher School, 400 p. (in Russian)
19.Montesquieu, Charles de Secondat. (2015). *The spirit of the laws.* Cambridge: Cambridge University Press, 757 p. (in English)
20.Narsky, I.S. (1973). *Western European Philosophy of the 18th Century.* Moscow: Higher School, 302 p. (in Russian)
21.Geyushev, Z. (1960). *Some issues of ethical views of Azerbaijani enlighteners of the second half of the 19th century. Proceedings of the sector of philosophy. Volume II (VII).* Baku: Publishing House of the Academy of Sciences of the Azerbaijan SSR, pp. 49-72. (in Russian)
22.Rzaev, A.K. (2000). *History of political and legal doctrines in Azerbaijan. From the origins to the twentieth century.* Baku: Elm, 528 p. (in Russian)
23.Rahimieh, N. (2017). Four iterations of Persian literary nationalism. *Constructing nationalism in Iran: from the Qajars to the Islamic Republic* (edited by Meir Litvak.). Abingdon: Routledge, pp. 40-55. (in English)
24.Sanjabi, Maryam B. (1995). Rereading the enlightenment: Akhundzada and his Voltaire. *Iranian Studies, 28:1-2,* pp. 39-60. (in English)
25.Parsinejad, I. (1990). *Mirza Fath Ali Akhundzadeh and Literary Criticism.* Piedmont: Jahan Book Co, 76 p. (in English)

26.Sadikhov, M. (1987). *Mirza Fatali Akhundov.* Baku: Yazychy, 78 p. (in Russian)
27.Jafarov J. (1962). *Mirza-Fatali Akhundov.* Baku: Azerbaijan State Publishing House, 24 p. (in Russian)
28.Arasli, H. (1938). *Mirza Fatali Akhundov.* Baku: Azerbaijan Soviet Writers' Union Publishing House, 52 p. (in Azerbaijani)
29.Taghizade, S. (1991). *Mirza Fatali Akhundov and the East.* Baku: Azerneshr, 304p. (in Russian)
30.Baskin, M.П. (1975). *Montesquieu.* Moscow: Publishing House "Thought", 165 p. (in Russian)
31.Kuznetsov, V.H. (1978). *Francois Marie Voltaire.* Moscow: Publishing House "Thought", 223 p. (in Russian)
32.Mirzoeva, Sh. (1981). *From the history of aesthetic thought in Azerbaijan (XIX-early XX century).* Baku: Elm, 204 p. (in Russian)
33.Volkhonsky, M., Mukhanov, V. (2007). *In the footsteps of the Azerbaijan Democratic Republic.* Moscow: Publishing house "Europe", 256p. (in Russian)
.